**2000-ci il martın 22-də Tbilisi şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış sənədlər haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

I. 2000-ci il martın 22-də Tbilisi şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hüquqi informasiya mübadiləsi haqqında Saziş

2. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Gürcüstan Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Gürcüstan Səhiyyə və Sosial Müdafiə Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş

II. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncam 1-ci bəndinin 1-ci və 2-ci yarımbəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

III. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndinin 3-cü yarımbəndində və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Sərəncamın 1-ci bəndinin 4-cü yarımbəndində göstərilən sazişlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər.

IV . Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Gürcüstan Hökumətini xəbərdar etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 466**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2946-2947.**